# EKOLOJİ İDARƏETMƏNİN STRATEJİ MƏSƏLƏLƏRİNƏ DAİR

**Göyçayskiy Ş.Y.**

*Bakı Dövlət Universiteti*
*sovqi_bdu@mail.ru*

Milli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə formalaşdırdığı yaradıcılıq mühiti başqa sahələrdə olduğu kimi, ekoloji tədqiqatlarında aparılmasına böyük təsir göstərmişdir.Təqdim edilən tezisdə ekologiya və onun idarə edilməsinə dair müddəalardan; biosfer-noofer arasındakı əlaqə və ziddiyətlərdən; təbii şərait və təbii ehtiyatların eynilik və fərqli cəhətlərindən; iqlim dəyişiklikləri ilə əlaqədar görülməli tədbirlərdən; ekoloji idarəetmədə CİS sistemlərindən istifadə məsələlərinə toxunulur.

Təbii sferalararası əlaqələr milyon illər ərzində gedən proseslər nəticəsində təkamülləşərək biosferi formalaşdırmışdır. Biosferdə təkamülün sonrakı mərhələsində, insanın (homo sapiensin) və insan birliklərinin (cəmiyyətin) yaranma mərhələsindəki təkamülün formalaşmasına dair qiymətli elmi təhlillər aparılmışdır. Müasir dövrdə şüurlu insanın sonrakı mərhələsinə dair yeni ideya və konsepsiyaların kifayətləndirici dərəcədə olmaması, dövrün qlobal ekoloji risklərinin izahında və idarə edilməsində ziddiyyətlər yaradır. Artıq mütəxəssislər tərəfindən sübut edilmişdir ki, insanın biota ilə müqayisədə rəqabət gücü 7 dəfədən çox olduğundan təbiəti dağıtmağa qadirdir. Biosferin tarazlığını saxlamaq üçün insanlar illik artımın 1%-ni mənimsəməli olduqları halda, təbii artımın 10%-dən çoxunu işlədirlər və s. Beləliklə, şüurlu insanların (bizlərin) müasir dövrdə yaratdıqları çox böyük risklərdən qisməndə olsa qorunmaq məqsədilə aşağıdakıları bildiririk:

- Həyatın idarə edilməsinin əsasını biosferlə noosferin (texnosferin) qarşılıqlı əlaqələrin birliyi təşkil edir. Nəzərə almaq lazımdır ki, bisoferə daxil olan təbii sferalar (litosfer, hidrosfer, atmosfer) daim dəyişməkdədir. Bununla yanaşı sferalar mürəkkəb ekstremal proseslərdən sonra aralarındakı harmoniyanı bərpa edirlər. Lakin son 250-300 ildə formalaşan noosfera biosferlə ziddiyyət yaradır. Biosfer və noosfer təlimini yaratmış dünya şöhrətli alim V.Vernadski, həmin sahənin sonrakı tədqiqatçıları da müəyyən etmişlər ki, dünya ölkələri yalnız ədalətli, demokratik quruluş yarada biləcəkləri şəraitdə, hər iki sferanın optimal inteqrasiyasını yarada bilərlər. Dünyada ekoloji proseslərin gərginliyi tələb edir ki, həmin sahədəki vəziyyət mümkün qədər real təsvir edilsin.

Müasir dünya dövlətlərində ekoloji problemlərlə bağlı iqtisadi-sosial, siyasi-hərbi, hüquqi-normativ və s. sənədlərin hazırlanması, onların müvafiq konvensiyalara qoşulmaları ilə, eləcə də dünyanın xeyli nüfuzlu qeyri dövlət təşkilatları, planetin ekoloji problemlərini tamam həll etmək gücünə malik deyillər. Onların həmin sahədəki ən böyük xidmətləri ekoloji problemlərin

çeşidlənməsinə, nüfuzlu institutların yaradılmasına, XXI əsrin gündəliyində ekoloji problemlərin xüsusi yer tutmasına səy göstərməklə yanaşı, ekoloji gərginliyi qismən azalda bilərlər.

Bəşəriyyətə məxsus təcrübələr göstərir ki, insanın yaranması, fəaliyyəti ilk növbədə optimal təbii mühitin və təbii təkamülün nəticəsində baş vermişdir. İnsanlar geniş ictimai təkrar istehsal yaratmaqla, təbii resurslardan kortəbii istifadə etməklə təbiətə çox tərəfli əks təsirlər göstərirlər: təbii resurslar təbii şəraitin tərkib hissəsi olduğundan, resurslardan istifadə ilk növbədə təbii şəraiti dağıdır, resursların istifadəsi zamanı müxtəlif tərkibli tullantılar ətraf mühiti çirkləndirir; təbii resursların, təbii mühitdən uzaqlaşdırılması, müxtəlif geokimyəvi zonalarda maddə və enerji axınlarının istiqamətini dəyişdirir; təbii resurslardan kortəbii istifadə, təbii –landşaftlarn (insan həyatı üçün əvəzolunmaz mühitin) sıradan çıxmasına təsir göstərir; ən başlıcası təbiətin özü-özünü bərpa etməsinə maneələr yaranır.

Nəzərə almaq lazımdır ki, ekosistemlər bisoferdə müxtəlif böyüklüyə, struktura, ekoloji tutuma, təbii təkrar istehsala və s. malikdirlər.Göstərilən strukturlar təbii zonanın, ekosistemin (landşaftın) tərkib hissəsi olaraq tükənməyən resurslar üçün də baza rolunu oynayırlar. Landşaftlar tam olmadıqda təbii təkrar istehsal davam etmir, torpaq, su, bitki örtüyü və s. bərpa olunmur. Yəni, landşaft bütöv olmadıqda təbii mühit funksiyasını yerinə yetirə bilmir. Bununla yanaşı biosferin müxtəlif landşaft tipləri yerin geoloji və hidrogeoloji, mühəndis geoloji strukturları ilə əlaqəli olurlar. Bəzi hallarda geoloji, geotektonik formalaşmalar landşaftlarda ümumi mühitin formalaşmasında da iştirak edirlər. Bir çox hallarda həmin məsələlər landşaftın formalaşmasının əsasları kimi də qəbul edilir. Nəzərə almalıyıq ki, resursların axtarışı və istismarı zamanı məhdud maraqlar səviyyəsində aparılan fəaliyyət nəticəsində, nəinki landşaftlar, yerin təki, hidrogeoloji strukturlar sıradan çıxır. Ərazinin resurslarının istismarı mərhələsində həyata keçirilməli olan rekultivasiya prosesləri istismar dövründə deyil, uzun dövrdən sonraya saxlanılır. Ümumiyyətlə, reusrların qiymətləndirilməsində ekoloji qiymətləndirmə və təbiəti bərpa məsələləri resurslardan istifadə fəaliyyətinə daxil edilməməsi problemlər yaradlır.

-Azərbaycanda ətraf mühitin mühafizəsi, ekosistemlərin təbii məhsuldarlığının saxlanması məqsədilə yaşıl iqtisadiyyata önəm verilməkdədir. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin göstərişi ilə həmin məsələnin Qarabağda həyata keçirilməyə başlanılması nəinki iqtisadi-sosial sahədə, eyni zamanda təbiəti-bərpa, cəmiyyətin ərazi təşkilində, yaşayış məntəqələrinin –ağıllı kənd və ağıllı şəhərlərin yaradılması mühüm əhəmiyyət kəsb edir. Göstərilənlərin ölkəmizin digər rayonlarına tətbiq edilməsinin yaxşı nəticələr verəcəyinə şübhə etmirik. Deyilənlər indiyə qədər bizə məlum olan aqrar sənaye birliklərinin yeni formada təzahürü olmaqla, idarəetmə sistemlərinin, təbiətdə özünü bərpanın təkmilləşdirilməsinə təsir göstərəcəkdir.

-İqlim dəyişiklikləri ilə əlaqədar olaraq dünya ölkələrinin böyük əksəriyyətinin həmin proseslə bağlı qabaqcadan məlumatları olmayıb. Əsasən dəyişikliklər düzən ərazilərdə və dağətəyi zonalarda daha kəskin müşahidə edilməkdədir. Həyatımızı eləcə də, təsərrüfatımızı, bioloji müxtəlifliyi və s. iqlim dəyişikliklərindən qorumaq üçün tarixin və eləcə də təbiətimizin yaddaşlarını bərpa etmək, dünya təcrübələrini öyrənməli və tətbiq etməliyik. Həmin nümunələr azda olsa qalmaqdadır. Nəzərə almalıyıq ki, onları bərpa etmək çox maliyyə xərcləri tələb etmir. Lakin onların verəcəyi xeyir dəfələrlə çəkilən xərclərdən çox və olduqca qiymətlidir.

Nəzərə almalıyıq ki, ətraf mühitdə gedən proseslər, bütün mikro və makro formalaşmalar fiziki coğrafi proseslərə uyğun dəyişir və inkişaf edir. Hər bir mühitdə ekoloji vəziyyəti ekoloji optimallığa gətirmək və yaxud deqredasiya olunan ərazilərdə bərpa işləri aparmaq məqsədilə landşaft pranalmadan istifadə etməklə, bütün fəaliyyəti fiziki coğrafi xəritələrlə idarə etmək lazım gəlir. Nəzərə almalıyıq ki, Azərbaycanda sosial iqtisadi inkişafın yol xəritələri əsasında idarə edilməsinə dair dövlətin xüsusi diqqət ayırması ilə zəngin CİS əsasında elektron baza yaradılmışdır. Əminik ki, ekoloji idarəetməyə dair tərtib edilən tematik xəritələrdən səmərəli istifadəyə yüksək şərait yaradılacaqdır.



Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə. III Respublika Elmi Konfransı